


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 110 (23.522)

11 iyul 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Genişmiqyaslı meliorativ tədbirlər məhsuldarlığa əsaslı zəmin yaradır

*Ərzaq təhlükəsizliyinin təmin olunmasında başlıca amillərdən biri əkinçilik məhsullarının su ilə təminatıdır. Son illər muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı xarakter alması hər bir naxçıvanlını ürəkdən sevindirir. Çünki həmin tədbirlərin nəticələrini hər birimiz öz həyatımızda görürük.*



Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən aldığımız məlumatda bu təsərrüfat ilində də çəkilən zəhmətin hədər getməyəcəyi bildirilir. Çünki zəhmətə bağlanan insanların maddi rifah halının daha da yaxşılaşdırılmasında əvəzsiz rolu olan torpaqlardan səmərəli istifadə diqqət mərkəzində saxlanılıb. Bu tədbirlər cari ilin yanvar-iyun ayları ərzində bir neçə istiqamətdə həyata keçirilib. Belə ki, bəhs olunan dövrdə suvarma mövsümünü mütəşəkkil təşkil etmək məqsədilə cəmiyyətin tabe təşkilatları tərəfindən kanal və arxlarda lildən təmizlənmə işləri davam etdirilib, suvarılan sahələrdə qrunt sularının səviyyəsini aşağı salmaq üçün müvafiq işlər görülüb. Hidrotexniki qurğularda təmir işləri yerinə yetirilib, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına və su ehtiyatlarından qənaətlə istifadəyə imkan verən müasir suvarma sistemlərinin quraşdırılması davam etdirilib, suvarma suyundan səmərəli istifadə olunmasına nəzarət həyata keçirilib.

Məlumatda bildirilir ki, muxtar respublika ərazisində olan su anbarlarına ilin əvvəlindən su ehtiyatının toplanılmasına başlanılıb. Arpaçay Su Anbarına 150, Heydər Əliyev Su Anbarına 55,4, Bənəniyar Su Anbarına 15, Uzunoba Su Anbarına 7,2, Nehrəm Su Anbarına 2,6, Sirab Su Anbarına 2,7 milyon kubmetr olmaqla, ümumilikdə, 241,6 milyon kubmetr su toplanılıb.

Əkin sahələrinin vaxtında və normalara uyğun olaraq suvarılmasını təmin etmək diqqət mərkəzində saxlanılıb. 30 iyun 2020-ci il tarixədək su istifadəçilərinə 152,5 milyon kubmetr su verilib, bunun müqabilində 128 min 907 hektar torpaq sahəsi suvarılıb.

Cari ilin yanvar-iyun ayları ərzində muxtar respublika ərazisində 125,3 kilometr beton və torpaq kanal, 116 kilometr ara arxlar, 22 kilometr kollektorun lildən təmizlənməsi həyata keçirilib. Beş kilometr içməli su, 0,6 kilometr kanalizasiya, 41 kilometr suvarma boru, 0,6 kilometr təzyiqli boru, 0,87 kilometr açıq drenaj xətləri çəkilib, 26 kilometr mövcud içməli su, 0,6 kilometr kanalizasiya, 18,5 kilometr suvarma boru, 25 kilometr təzyiqli boru xətlərində, 1,6 kilometr kapitajda, 3,5 kilometr açıq drenajda təmir-bərpa işləri aparılıb. Təmir-bərpa işlərində keyfiyyət amilinə ciddi riayət edilib.

Torpaq sahələrinin su ilə təminatının yüksəldilməsi və su itkisinin qarşısının alınması məqsədilə Babək rayonunda Heydər Əliyev Su Anbarından başlayan Yeni Sağ Sahil magistral kanalında təmir işləri başa çatdırılıb.

Muxtar respublikada yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması məqsədilə bu il də bir sıra quruculuq tədbirləri həyata keçirilib. Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən aldığımız məlumatda deyilir: Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi üçün Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 800 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilib, 2,7 kilometr ana xətt, müxtəlif diametrli borularla 24,5 kilometr paylayıcı boru xətti çəkilib, şəbəkə üzərində 270 supaylayıcı hovuz və suvarma hidrantı quraşdırılıb.

Bu tədbir Şahbuz rayonunun Türkeş kəndi ərazisində də həyata keçirilib. Belə ki, 270 hektar sahədə də qapalı suvarma şəbəkəsinin tikintisi aparılıb, 4,7 kilometr ana xətt, müxtəlif diametrli borularla 4,2 kilometr paylayıcı boru xətti çəkilib. Daylaqlı-Şahbuz avtomobil yolunun kənarında, "Böyrək suyu" bulağının yaxınlığında salınmış yaşıllıq ərazisinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə 200 metr yeni arx istismara verilib.





Son illər muxtar respublikamızda qiymətli su mənbələri olan kəhrizlərin təmir-bərpasına ciddi önəm verilir. Bəhs olunan dövrün yanvar-iyun aylarında 5 kəhrizdə təmir-bərpa işləri başa çatdırılıb, 5 kəhrizdə isə təmir-bərpa işləri davam etdirilib.

Suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyuları da diqqətdən kənarda qalmayıb, onlardan 25-nə yeni nasos quraşdırılmaqla 366 ədədi təmir olunub. Bundan əlavə, Babək rayonunun Kültəpə və Şahbuz rayonunun Türkeş kəndlərinin hər birində 1 subartezian quyusu balansa alınıb, Şərur rayonunun Yuxarı Daşarx, İbadulla və Cəlilkənd kəndlərinin hər birində 1 yeni subartezian quyusu tikilərək istifadəyə verilib.

Sərhəd bölgəsi Sədərək rayonunun Heydərabad qəsəbəsi ərazisində yeni əkin sahələrinin suvarma suyu ilə təmin olunması üçün 3 subartezian quyusu tikilərək istifadəyə verilib. Görülən işlər nəticəsində Şərur rayonunda 109,4, Babək rayonunda 196,1, Sədərək rayonunda 5,2 hektar olmaqla, ümumilikdə, 310,7 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınıb. Torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq tədbirləri də davam etdirilib. Şərur rayonunda Arpaçayda, Babək rayonunda Cəhriçay vadisində, Naxçıvançayda və Qahab selovunda, ümumilikdə, 5,06 kilometr selə qarşı istiqamətləndirici bənd tikilib.

Nasos stansiyalarında suvarma mövsümünə hazırlıqla əlaqədar aparılan təmir-bərpa işləri ilə bərabər, təzyiqli boru xətlərində də təmir işləri görülüb.

Hər il əraziləri genişləndirilən yaşıllıqlara qulluq bu gün hər bir naxçıvanlının vətəndaşlıq borcuna çevrilib. Bu sahədə su təsərrüfatı işçiləri öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar. Bunun ifadəsidir ki, suvarma suyu ilə təminatını yüksəltmək üçün Babək şəhərindən Naxçıvan Hava Limanı istiqamətində, rayonun Güznüt kənd, Nəzərabad kənd, Uzunoba gölünün yaxınlığında olan təpədə, Çeşməbasar-Güznüt, Şıxmahmud-Şahbuz və Xətai-Şıxmahmud avtomobil yollarının kənarında cəmi 12,46 kilometr suvarma boru xətti təmir olunub.

Bəhs olunan dövrdə "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində də xeyli iş görülüb. Məlumatda deyilir ki, Şərur rayonunda Cəlilkənddə 7,6 kilometr su xətti çəkilib, 342 ev birləşməsi aparılıb və sayğac quraşdırılıb. Ümumilikdə, Cəlilkənddə müxtəlif diametrli borularla 11,3 kilometr içməli su xətti çəkilib, 342 ev birləşməsi aparılıb və sayğac quraşdırılıb, 5 yanğın hidrantı birləşdirilib.

Şərur sutəmizləyici qurğuda dəmir beton və hörgü işləri başa çatıb, binanın dam örtüyü vurulub, ərazidə abadlıq işləri aparılıb.

Babək rayonunun Nehrəm qəsəbəsində və Araz kəndində 36,8 kilometr içməli su və 24,2 kilometr kanalizasiya xətti çəkilib. Ordubad rayonunda su və kanalizasiya xətlərində, quyularda və su anbarlarında təmir işləri, sutəmizləyici qurğunun ətrafında isə abadlıq işləri aparılıb. Sədərək rayonunda adıçəkilən layihənin icrası istiqamətində işlərə başlanılıb və 21,7 kilometr içməli su, 12,5 kilometr isə kanalizasiya xətti çəkilib. Kəngərli rayonunun Qarabağlar kəndində 20,2 kilometr içməli su xətti quraşdırılıb, 470 ev birləşməsi aparılıb. Aşağı və yuxarı su anbarlarında tikinti işləri davam etdirilib.

*Bütün bunlar belə deməyə əsas verir ki, muxtar respublikada genişhəcmli meliorativ tədbirlərin həyata keçirilməsi qədim diyarımızda aparılan quruculuq işlərinin tərkib hissəsinə çevrilib. Bu isə əkin sahələrinin vaxtında suvarılmasını təmin edir. Su boldursa, deməli, məhsulumuz da bol olacaq.*

✍ **Muxtar MƏMMƏDOV**

## Operativ vergi nəzarəti tədbirləri görülür

2020-ci ilin iyun ayında Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər aparılıb, 8 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb. Operativ vergi nəzarəti tədbirləri zamanı 2 vergiödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 2 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olması, 4 şəxsin isə "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığortahaqqının ödənilməsi haqqında qəbz" almadan fəaliyyət göstərməsi aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb. Qeyd olunan dövrdə müvafiq icra hakimiyyəti orqanları ilə birgə 17 işəgötürəndə aparılmış araşdırmalar zamanı 24 yeni əmək müqaviləsinin bağlanmasına nail olunub.

**Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti**

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir



Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər iyun ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 3 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində müvafiq tədbir görülmüşdür.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 80 müraciət daxil olmuşdur. Həmin müraciətlər əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi və yenidən rəsmiləşdirilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti**

## Əmək pensiyalarının maliyyələşdirilməsi başa çatdırılıb

Muxtar respublikada sosial müdafiə sahəsində modern və çevik idarətmənin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda və onun yerli orqanlarında müasir standartlara uyğun iş yerləri yaradılıb, vətəndaşlara göstərilən xidmət müasir səviyyədə qurulub. Bunun nəticəsidir ki, hər ay olduğu kimi, iyul ayında da əmək pensiyalarının maliyyələşdirilməsi vaxtında başa çatdırılıb. Təyin olunan əmək pensiyalarının ödənişi plastik kartlar vasitəsilə pensiyaçılara çatdırılıb. Kəndlərdə yaşayan əmək pensiyaçıları isə pensiyalarını yaşadığı məntəqədən kənara getmədən ərazidə yerləşən poçt bölmələri vasitəsilə də rahatlıqla əldə edirlər. Eyni zamanda əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtında ödənilməsi, həmin şəxslərin şəxsi hesablarına və ya poçt ünvanlarına vəsaitin köçürülməsi üçün müvafiq işlər davam etdirilir.

Fond qanunvericiliklə müəyyən olunan məbləğlərdə daxil olan məcburi dövlət sosial sığortahaqqı hesabına pensiya və müavinətləri maliyyələşdirir. Muxtar respublikada daxil olan məcburi dövlət sosial sığortahaqqının məbləği ildən-ilə artmaqdadır. Bunun əsas səbəbi burada iqtisadi inkişafın dinamik artımı, yeni iş yerlərinin yaradılması, həmçinin sosial sığorta sistemində aktiv iştiraka marağın getdikcə artmasıdır. Bunun nəticəsində isə pensiya və müavinətlərin maliyyələşdirilməsində daxil olan məcburi dövlət sosial sığortahaqqı əsas mənbəyə çevrilib.

Fond əhalinin sosial rifah halının yaxşılaşdırılmasına xidmət edən tədbirlərin icrası ilə bağlı müvafiq işləri həyata keçirməyə davam edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

İnkişaf edən bölgələrimiz

# Sədərəkdə bir gün...



*İlin bu gözəl günlərində gəzməli, görməli Naxçıvanımızın hər guşəsi bütün növrağı ilə insanı özünə cəzb edir. Dağlar gözəli Batabatdan xan Araza, Azərbaycanın incisi Ordubaddan qeyrət qalası Sədərəyədək bütün torpaqlarımızda ana təbiətin və insan əlinin yaratdığı füsunkarlıqlar aşıb-daşır, hər qarışda kök salan quruculuq, torpağa, yurda sevgi hissləri öz bəhrəsini verir. Böyük və güclü Azərbaycanın ən qərb nöqtəsi, ölkəmizin qardaş Türkiyəyə və bilavasitə bütün Avropaya çıxış qapısı olan Sədərəyə bir gün gəlsəniz, bəlkə də, dünyanın heç bir yerində qazana bilməyəcəyiniz duyğularla dolu təəssüratlarla evə qayıtmaq mümkündür.*

Sədərək haqqında çox deyilib, çoxlu yazılar yazılıb, bu yurdun şöhrətinə nəğmələr qoşulub. Ancaq nədəndirsə, bu torpağa hər gəlişində, sanki yeni bir hekayəyə şahidlik edir, onu yaşadan insanların qulaqyoldaşı olursan. Odur ki, Günəşin qocaman Ağrı dağının ağappaq zirvəsindəki rəng çalarları qədər süslənmiş Sədərəyin keçmişi, bu günü və gələcəyi üçün yaşayıb-yaradan insanları, onların əməyi barədə söhbət açmaq da ürəkdən gələn hissdir.

Vətənimizin hər qarış torpağı qiymətlidir. Ancaq hər dəfə Sədərəkdə olduqda Azərbaycanın bu gözəl diyarına bir daha bağlanır insan. Düşmənlə üzbəüz, cəmi bir neçə yüz metrlik sərhəddəki Heydərabad qəsəbəsinin, Sədərək və Qaraağac kəndlərinin qaynar sosial və təsərrüfat həyatı hələ ilk baxışdaca fərqli bir mənzərə yaradır: Sədərəyin özünəməxsus gözəllikləri vardır.

Sədərək rayonunun müasir sosial-iqtisadi mənzərəsi çox rəngarəngdir. Rayonun təsərrüfatçılıq ənənələri və insanların sosial şəraiti burada ucqardan daha çox mərkəzə məxsus olan bir həyat tərzindən xəbər verir. Sədərəkdə səhər gün çıxmamışdan qaynayan təsərrüfat işlərini, bütün gün ərzində insanların aktiv məşğulluğunun, burada torpağın hər qarışından səmərəli istifadə, istehsal və xidmət sahələrində fəallığı görmək olar. Bölgə əhalisi geniş əkinçilik və bağçılıq ənənələrinə malikdir. Bununla yanaşı, rayonda işğaldan azad edilmiş ərazidə əkilmiş yamyaşıl əkin sahəsinə baxdıqda heç bir çətin işin yurd-torpaq sevgisi qarşısında problem olmadığına bir daha şahid olursan. Belə ki, həyata keçirilən tədbirlər nəticəsində 2010-cu ildən etibarən bu ərazilər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nəzarətinə keçdi. Ötən dövrdə ərazinin minalardan təmizlənməsinə başlanılmış, meliorativ tədbirlər görülmüş, nəzarətə keçən torpaqların 73 hektarı əkin üçün yararlı vəziyyətə gətirilmişdir. 1650 metr məsafədə yerləşən Şirarxı kanalı üzərində qurulmuş yeni nasos stansiyasından əraziyə su verilmiş, eləcə də mövcud 3 subartezian quyusu bərpa olunaraq 2500 metr boru xətti çəkilmişdir. Həmçinin əraziyə yeni elektrik verilişi xətti çəkilərək subartezian nasosları quraşdırılmışdır. Məkrli düşmən mövqelərinə çox yaxın olsa da, böyük cəsarət və qətiyyətlə görülən bu işlər işğal altında qalmış digər Vətən torpaqlarımızın da belə, cənnətməkana çevriləcəyi günün uzaqda olmadığını deyir. Ümumilikdə isə Sədərək rayonu ərazisində bu il 2357 hektardan çox sahədə taxıl, 89 hektar sahədə qarğıdalı əkilib. Rayonda 2992 baş iribuynuzlu, 19127 baş xırdabuynuzlu heyvan bəslənilir. Cari ilin yanvar-aprel aylarında burada 664 min manatdan çox dəyərdə sənaye məhsulu istehsal olunub.

Fəsillərin bu gözəl vaxtında rayon mərkəzi Heydərabad qəsəbəsi öz gül-çiçəyi və səliqə-sahmanı ilə bütün sədərəklilərin mədəni istirahətinin ən gözəl məkanıdır. Qəsəbədə yeni istifadəyə verilmiş 7 mərtəbəli, 48 mənzilli yaşayış binası, uşaq bağçası, habelə sərhədlərimizin keşiyində dayanmış hərbi qulluqçular üçün yenidən qurulmuş əsgəri-yaşayış kompleksi buradakı insanların sosial həyatının keyfiyyətindən xəbər verir. Sədərək rayonunun girişində inşa olunan Bayraq Meydanında ucalacaq üçrəngli bayrağımızın möhtəşəm görüntüsü isə dostlarımızın qəlbində qürur yaradacaq. Ayrıca olaraq Sədərəkdə Bayraq Meydanı ilə yanaşı, tikintisi davam etdirilən radio-televiziya verilişləri stansiyasının inzibati binası və içməli su anbarı burada sürətlə aparılan işlərdəndir.



Modern həyatın mühüm keyfiyyət göstəricilərindən biri insanların keyfiyyətli və təhlükəsiz içməli su təminatıdır. Bu mənada, Sədərəkdə içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi rayonun bütün yaşayış məntəqələrində insanların həyatını kökündən dəyişdirəcək. Bu, xüsusən su ehtiyatları məhdud olan bölgə üçün çox əlamətdardır. Layihəyə uyğun olaraq Heydərabad qəsəbəsində, Sədərək və Qaraağac kəndlərində 155 kilometrə yaxın içməli su, 145 kilometrə yaxın isə kanalizasiya xətləri çəkiləcək, 3600-dən artıq su və kanalizasiya ev birləşmələri aparılacaqdır.

*Sədərək coğrafi mövqeyinə görə ucqarda olsa da, bu torpaqlar həmişə dövlətimizin diqqət və qayğısı əhatəsindədir. Bura elə bir müqəddəs yerdir ki, tökülən hər damla şəhid qanı, azad olunan hər qarış Vətən torpağı bütün Azərbaycanın göz bəbəyidir. Odur ki, Sədərəkdən ayrılarkən burada yaşayan zəhmətkeş insanlarla əl tutub, bir daha bu qədim Oğuz yurduna gəlmək ümidi ilə sağollaşırıq. Axşama doğru, Günəşin qürub şəfəqlərinin Haçadağın zirvəsinə sancılmağa başladığı vaxt Naxçıvan şəhərinə çatmaq üçün qarşıda bir saat yolumuz var...*

**Əli CABBAROV**

Ailə təsərrüfatlarımız

# Zəhmətkeş əllərin sorağı ilə...



Sarısaç dünya gözəli Günəş dağların arxasından yenicə boylanır, hələ yuxudan tam oyanmamış şəhərin abad, geniş küçələrində şütüyən bir neçə avtomobil, eləcə də iş-güc dalınca tələsən iki-bir, üç-bir insanlar gözə dəyir. Budəfəki yolçuluğum şəhər mərkəzindən cəmi bir neçə kilometr aralıya – Qaraxanbəy, Qaraçuq kəndləri istiqamətinədir. Avtomobilə əyləşməyimdən, təxminən, 10 dəqiqə sonra ünvana yetişirəm. İlk baxışdan görünən odur ki, səhərin erkən çağından kombaynlar tarlada işləyir, Qaraçuq, Qaraxanbəy, Bulqan kəndlərinə məxsus torpaq sahələrində göz işlədikcə uzanan zəmilər biçilir, sarı kəhrəba tədarük olunur, saman layları bir-birinə pərçim edilərək tayalar halına salınır. Zəhmətkeş adamların alın təri ilə bərabər, çöhrələrində görünən təbəssüm isə məhsul bolluğunun müjdəsini verir. Sərin səhər mehinin əl gəzdirdiyi şehli otların arası ilə əkinbiçin ərazilərinə doğru addımlayıram...

Sözləşdiyimiz kimi bir qədər aralıda dayanıb yolumu gözləyən Kazım kişi – 50-dən artıq yaşının çoxunu təsərrüfat işlərinə həsr edən, Naxçıvan şəhərinin Qaraçuq kəndində yaşayan Kazım Qurbanov irəli yeriyərək xoşgəldin edir. İşiniz irəli, məhsulunuz bərəkətli olsun, – deyib, həm də kənd bələdiyyəsinin sədri vəzifəsində çalışan torpaq adamının dəyərli vaxtını çox almamaq üçün elə ayaqüstü qısa söhbət edirik. Deyir ki, ölkəmizdə aparılan torpaq islahatı əvvəllər yalnız həyətyanı sahəsində əkinçiliklə məşğul olan hər kəs kimi mənim də imkanlarımı xeyli genişləndirdi. Özümə pay torpağı götürdüm və başladım əkib-biçməyə, məhsul yetişdirib bazara çıxararaq qazandığım məvaciblə özümə, övladlarıma gözəl şərait qurmağa. Əli ilə rüzgar vurduqca gah dəniz ləpələri kimi dalğalanan, gah da barverən ağac budaqlarıtək başını torpağa dikən sünbülləri göstərərək bax bu geniş ərazini bir neçə ildir, icarəyə götürüb taxılçılıqla da məşğul oluram, – deyir. Məhsuldarlıq da ürəkaçandır, ötən il əkin apardığım 55 hektara yaxın ərazidən 120 ton məhsul tədarük etmişdim. Növbəti əkin zamanı ərazini daha da genişləndirərək 70 hektara çatdırmışam. Artıq yığılan məhsulları vim aqreqatından keçirərək növbəti əkin üçün toxum və mal-heyvan, toyuq-cücənin tələbatını ödəyəcək yem istehsalına da başlamışam.

Ailə təsərrüfatçısı bugünkü firavanlığın, bolluğun qədir-qiymətini bilməyin vacibliyinə diqqət çəkərək qeyd edir ki, günün istənilən saatında marketlərdə səliqə ilə yığılmış tər çörəklərdən istədiyimiz qədər ala bilirik, necə deyərlər, evə əlimiz dolu, üzümüz ağ gedirik. Daha nə 90-cı illərdəki kimi saatlarla çörək növbəsi gözləyən var, nə də ki "marketdə çörək qurtarıb, bir-iki saatdan sonra gedim görüm olsa, alaram", – deyən naəlac taparsan. Elə süfrə başında da "İlahi bizi bir daha çörəklə imtahana çəkmə", – deyərək övladlarıma bu firavan günlərin qədrini bilməyin vacibliyini aşılamağa çalışıram. Çörəyin hasilə gəlməsi heç də asan deyil. Taxılın əkilməsi, becərilməsi, yığılması, dəyirmanda üyüdülərək un halına salınması, bişirilərək marketə gətirilməsinə qədərki prosesi incələsək, bu işin necə böyük zəhmət tələb etdiyini görərik. Odur ki, gərək yediyimiz naz-nemətin, xüsusilə də çörəyin qədrini biləkk, torpağımıza isə nəvazişlə, qayğı ilə yanaşaq ki, daim əlimiz dolu, ocağımız nurlu, bərəkətli olsun.

Kazım kişi bildirir ki, muxtar respublikamızda aqrar yönümdə aparılan məqsədyönlü tədbirlər nəticəsində ilbəil əkin-biçin işlərinə həvəs artır. Bu gün insanlara rahat işləməsi, məhsul bolluğu yaratması üçün hərtərəfli şərait yaradılıb. Torpaq mülkiyyətçilərinin müasir kənd təsərrüfatı texnikaları, mineral gübrələr və müasir suvarma sistemləri ilə təmin olunması, sahibkarlıq fəaliyyəti göstərənlərə güzəştli kreditlərin verilməsi, eyni zamanda dövlətimiz tərəfindən ayrılmış yardımlar bizə böyük stimul verir. Mən də ötən illərdə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə güzəştli şərtlərlə otbiçən, kipvuran, gübrə, toxum, dərmansəpən texnikalar əldə etmişəm, suyumuz da şükürlər olsun ki, boldur. Qalır zəhmət çəkib, daim işləyərək davamlı faydasını görməyim...

Ailə təsərrüfatçısının işi tək taxılçılıqla bitmir, o, 30 baş xırdabuynuzlu, 22 baş iribuynuzlu heyvan saxlayır, həmçinin həyətyanı sahələrində də mövsümi tərəvəzlər yetişdirərək həm özlərinin tələbatını ödəyir, həm də bazara çıxararaq yaxşı məvacib əldə edir. Bundan başqa, tədarük etdikləri məhsulları konservləşdirir, zövqlə qablaşdırdıqları meyvə quruları, turşular, süd, şor, kərə, qatıq ilin soyuq dövrlərində də yarmarkalarda piştaxtaları bəzəməklə alıcıların zövqünü oxşayır, ağız dadına çevrilir.

Kazım Qurbanovla söhbətim zamanı öyrəndim ki, o, mövsüm vaxtı ailə üzvləri ilə yanaşı, 10-15 aztəminatlı həmkəndlisini də işlə təmin edən təsərrüfatçı olmaqla yanaşı, birinin işinin qulpundan yapışmağı, darda olana əl uzatmağı da çox sevir.

*Deyirlər, haram malın bərəkəti olmaz, hansı sahəni seçməyindən asılı olmayaraq, gərək işə halallıqla yanaşasan. Torpağı sevib yurduna könüldən bağlanaraq halallığı gözləyib zəhmətə qatlandınsa, həm el arasında hörmətin olar, həm də yaxşı gün-güzəranın. Elə qaraçuqlu ailə təsərrüfatçısı Kazım Qurbanov kimi...*

**Nail ƏSGƏROV**

# Hərbi hissəyə sovqat aparılıb



Ordumuzun qüdrətini artıran mühüm amillərdən biri də xalq-ordu birliyidir. Naxçıvan Muxtar Respublikasında bu məsələ daim diqqətdə saxlanılır, ardıcıl tədbirlər həyata keçirilir. Muxtar respublika əhalisinin, dövlət qurumlarının, müəssisə və təşkilatların, ayrı-ayrı sahibkarlıq subyektlərinin hərbi hissələrə sovqat aparmaları şəxsi heyət tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır. Xalq-ordu birliyinin əyani sübutu olaraq Culfa Rayon İcra Hakimiyyəti tərəfindən iməciliklər yolu ilə salınmış bağlardan 400 kiloqram ərik, 500 kiloqram alma və 180 kiloqram alça "N" hərbi hissəyə, 110 kiloqram ərik, 170 kiloqram alma və 40 kiloqram alça yığılaraq sərhəd zastavasına təhvil verilib. Ümumilikdə, hərbçilərimizə tədarük olunmuş 1400 kiloqram meyvə sovqat aparılıb.

Bununla bağlı keçirilən tədbirdə Culfa Rayon İcra Hakimiyyətinin Hüquq şöbəsinin müdiri Elmar Həsənov çıxış edərək bildirib ki, əsgərlərlə həmrəylik nümayiş etdirilməsi, onlara sovqatların aparılması xalqımızın öz ordusuna olan sevgi və ehtiramının daha bir ifadəsidir. Azərbaycan əsgəri də fəxr edir ki, onun arxasında qüdrətli Azərbaycan dövləti və xalqı dayanıb.

Zabit Vüsal İsgəndərov, əsgər Nicat Məmmədov göstərilən diqqət və qayğıya görə hərbi hissənin şəxsi heyəti adından öz minnətdarlıqlarını bildiriblər.

**Alim AĞAYEV**

# Taktiki təlimlər davam edir

Əlahiddə Ümumqoşun Orduda keçirilən tabor, divizion döyüş atışlı və atışsız taktiki təlimləri davam edir. Taktiki təlimlərə motoatıcı və tank bölmələri ilə yanaşı, hərtərəfli təminatın təşkili üzrə digər bölmələr də cəlb edilib.



Təlimə cəlb edilmiş bölmələr "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonlarına çıxarılıb.

Tabor, divizion döyüş atışlı və atışsız təlimlərdə əsas diqqət bölmələrin səhra vərdişlərinin yüksəldilməsinə, müasir ümumqoşun döyüşünün hazırlanıb aparılmasına və təlimdə iştirak edən digər qoşun növlərinin bölmələri ilə qarşılıqlı əlaqənin yaradılmasına yönəldilib.

Döyüş atışlı taktiki təlimlərdə bütün silah növlərinin, eləcə də tank və piyadanın döyüş maşınlarının atəşi ilə hədəflər məhv edilib.

Təlimlərdə bölmələrin döyüş uzlaşması döyüş şəraitinə maksimum yaxınlaşdırılmış vəziyyətdə aparılır.

Təlimə cəlb edilən şəxsi heyətin arxa təminatının təşkili məqsədilə tabor və divizionların maddi-texniki təminat məntəqələrinə vasitələrin çatdırılması təminedici birləşmə və hissələrin bölmələri tərəfindən icra edilib.

**Nəriman NƏCƏFOV**

*Təxminən, iki il bundan əvvəl velosiped sürməyin faydaları haqqında bir yazı hazırlamışdım. Yazıda qeyd etmişdim ki, velosipeddən istifadə bizim üçün yad məşğuliyyət deyil. Ölkəmizdə bu nəqliyyat vasitəsindən istifadənin tarixi ötən əsrin 30-cu illərindən başlayır. 40-cı illərdən sonra isə, əsasən, məktəblilər arasında populyar olan velosiped idmanı o zamanlar müxtəlif spartakiadaların keçirilməsi ilə yadda qalmışdır.*

*Mətbu startap layihələri*

# Naxçıvanda veloturizmin inkişafı üçün geniş imkanlar var







1950-ci illərdə Azərbaycanda velosiped idmanı üzrə əsaslı irəliləyişlər əldə olunmağa başlanmış, idmançılarımız SSRİ çempionatında və dünya birinciliyində qüvvələrini sınamışlar. Bu idman növünə göstərilən böyük qayğının nəticəsidir ki, 1980-ci ildə ümummilli lider Heydər Əliyevin müvafiq sərəncamı ilə Bakıda dünya standartlarına uyğun Respublika Velotreki tikilib istifadəyə verilmişdir. Uzunluğu 333 metr olan bu velotrekdə bir sıra ümumittifaq yarışları keçirilmişdir. Azərbaycan velosipedçilərindən ibarət nümayəndə heyəti 1985-ci ildə Moskvada keçirilmiş konfransa da qatılmışlar. Müstəqilliyimizin bərpasından sonrakı dövrdə, xüsusilə 1997-ci ildən cənab İlham Əliyev Milli Olimpiya Komitəsinə prezident seçildikdən sonra Azərbaycanda Olimpiya hərəkatı sürətlə inkişaf etməyə başlamışdır. 1997-ci ildən Milli Olimpiya Komitəsinə uğurla başçılıq edən cənab İlham Əliyevin səyi və təşəbbüsü sayəsində qısa müddətdə Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işləri uğurla inkişaf etmişdir. Ölkədə müasir idman komplekslərinin tikintisi başa çatdırılaraq idmançıların istifadəsinə verilmiş, peşəkar idman federasiyaları, o cümlədən Azərbaycan Velosiped İdmanı Federasiyası yaradılmışdır. Eyni zamanda bu federasiyanın veloparkı yenilənmişdir. Bu isə ölkəmizdə beynəlxalq səviyyəli velosiped yarışlarının keçirilməsinə imkan vermişdir. 2011-ci ildə isə ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümündə "Böyük Qafqaz" veloyürüşü təşkil edilmişdir. Bunu da vurğulamaq istərdik ki, Azərbaycanda velosiped idmanına marağın böyük olması nümunələrindən biri də Bakı Dövlət Universitetində yerləşən və 40 ildən çoxdur, fəaliyyət göstərən beynəlxalq miqyaslı Velosiped İdmanı Muzeyidir.

Bu məlumatları yenidən xatırlatmaqda məqsədimiz odur ki, bizim, necə deyərlər, velosipedlə bağlı bir keçmişimiz olub. Bir neçə il bundan əvvəl ölkəmizdə yeni velosiped istehsalına başlanılması, dövlət başçısının müəssisənin açılışında şəxsən iştirakı və bu sərfəli nəqliyyat vasitəsindən istifadəni hər kəsə tövsiyə etməsi onu göstərdi ki, müasir dövrdə bu sahənin inkişafı hər birimiz üçün əhəmiyyətlidir. Çünki velosiped ilk olaraq insan sağlamlığında mühüm rol oynayır. Digər tərəfdən texnoloji vasitələrin hər keçən gün artması ekologiyanın qorunmasını zəruri edir ki, burada da velosipedin rolu bir daha önə çıxır. Bundan əlavə, velosipeddən istifadə digər nəqliyyat vasitələri ilə müqayisədə daha sərfəlidir.

Muxtar respublikamızda da velosipeddən istifadə hər keçən gün artmaqdadır. Ancaq etiraf edək ki, bu, populyar səviyyədə deyil. Hələ ki, bizdə velosipeddən istifadə kütləvi xarakter daşımır. Bir neçə ay bu sahədə apardığımız müşahidələr nəticəsində məlum oldu ki, muxtar respublikada velosipeddən ən çox istifadə Şərur rayonunun payına düşür. Yəqin ki, Şərura yolu düşən hər kəs həm rayon mərkəzində, həm də kəndarası yollarda bu nəqliyyat vasitəsindən istifadə edənlərin çox şahidi olub. Maraqlı burasıdır ki, velosiped sürənlərin də böyük əksəriyyəti ortayaşlı və ondan yuxarı sakinlərdir. Bu, təqdirolunası haldır. Çünki, adətən, uşaqlıq dövründə hər birimiz velosipeddən istifadə etmişik. Ancaq yaşımız artdıqca bəzi zərərli mental düşüncələrimizi göz önünə gətirib, düşünmüşük ki, artıq uşaq deyilik – "ağır oturub batman gəlməliyik", "bizi görən nə deyər?" və sair. Ona görə də gənc nəslin nümayəndələri ilə yanaşı, nisbətən yaşlıları da velosipedlə görmək, gözəl nümunədir. Yəni bu davranışla hər birimiz o düşüncələrimizdəki sosial fobiyanı götürə bilərik. Elə bizim bu yazıda daha çox qabartmaq istədiyimiz məsələ də muxtar respublikada velosipeddən istifadənin kütləviliyini təmin etmənin yolları haqqındadır. Düşünürük ki, artıq bunun zamanı yetişib və bu kütləvilik təkcə velosipedlərin insan sağlamlığına müsbət təsiri, sərfəli nəqliyyat vasitəsi kimi faydalılığı ilə yanaşı, həm də muxtar respublika turizminə öz töhfəsini verə bilər.

Bildiyimiz kimi, bu gün dünyanın turizm xəritəsində ən çox pay inkişaf etmiş və ya etməkdə olan ölkələrə aiddir. Turizm sahəsində tədqiqatlar aparan ekspertlər müəyyən ediblər ki, aktiv velosiped istifadəçiləri də daha çox həmin ölkələrin payına düşür və bu onlar üçün gündəlik məşğuliyyətə çevrilib. Bu mənada, həmin insanlar getdikləri turizm bölgələrində də velosipedlərə ehtiyac duyurlar. Bunun da səbəbi ondan qaynaqlanır ki, velosipedlə gəzinti şəhərdaxili və ya şəhərkənarı gəzintilərdə çox ucuz başa gəlir. Həmçinin belə gəzintilərdə avtomobildən istifadə velosiped qədər əlverişli deyil. Çünki velosipedlə gəzərkən nəqliyyat tıxacları səni gecikdirmir, ətraf aləmlə daha əyani tanış ola bilirsən, digər nəqliyyat vasitələri ilə müqayisədə sürücünü gözlətmirsən və sair. Bu da, son nəticədə, vaxt və maliyyə itkisinin qarşısını alır. Yeri gəlmişkən, turistlər üçün fotoşəkil çəkdirmək səfər zamanı sevimli məşğuliyyətlərdən biri sayıldığından avtomobildən fərqli olaraq bu işi velosipedlə görmək daha əlverişli sayılır. Tədqiqatlarda daha maraqlı və diqqəti cəlb edən isə budur ki, turistlər getdikləri bölgədə əgər iki-üç gün qalmaq istəyirlərsə, bəzən şərait imkan verirsə, velosipedin sayəsində bu gəzintilər əlavə olaraq bir neçə gün də davam edir. Məhz bütün bu tərəflərini nəzərə alsaq, belə nəticəyə gələ bilərik ki, bu nəqliyyat vasitəsi yuxarıda sadaladığımız faydaları ilə yanaşı, həm də turistlərə əhali ilə daha yaxından təmas qurmağa, deməli, insanlarımızı, milli dəyərlərimizi daha yaxından tanımağa və hiss etməyə, bunun da nəticəsində getdikləri ölkəni qısa müddət ərzində tərk etməməyə imkan verir.

Təsadüfi deyil ki, bu gün dünyanın hansı inkişaf etmiş turizm bölgəsinə getsək, orada mütləq şəkildə veloturizmin populyarlığının şahidi olarıq. Son illərdə qonşu Türkiyə və Gürcüstanda turizm şirkətləri bu istiqamətdə fəaliyyətə daha çox diqqət edirlər. Çox zaman qrup şəklində bu ölkələrə səfər edənlər olduqları bölgəni yaxından tanımaq üçün yerli şirkətlərin onlara təklif etdiyi müxtəlif təyinatlı velosipedlərdən istifadə edirlər. Bu şirkətlər turistlərin məhsuldar və təhlükəsiz gəzintilərini təşkil etmək üçün onları lazımi velosiped aksesuarları, elektron yol xəritələri, istəyə bağlı olaraq gecələmə çadırları, şəhər gəzintisi üçün nəzərdə tutulubsa, səbətli (alış-veriş etmək üçün) velosipedlərlə təmin edirlər. Düşünürük ki, muxtar respublikamızda da belə bir sahənin inkişaf etdirilməsinə ehtiyac var. Birinci ona görə ki, Naxçıvan maraqlı coğrafi əraziyə, bütün bölgələrə yayılmış tarixi və mədəni obyektlərə, əsrarəngiz təbiət mənzərələrinə malik bir turizm regionudur. Bu xidmət üzrə turistlərə ediləcək təkliflər səyahəti sevənlər üçün gözəl fürsət sayılar. Bir şeyi yaddan çıxarmayaq ki, turistlər bir ölkəyə getmək istədikləri zaman ilk olaraq gedib-gəlmək üçün yol planı cızır, həmin bölgədəki mövcud obyektlər və şəraitlə maraqlanırlar. Eyni zamanda ən çox düşündükləri təhlükəsizliklərinin təminatı olur.

Bu gün Naxçıvan Muxtar Respublikasında sabitlik və təhlükəsizlik ən inkişaf etmiş ölkələrdəki vilayətlərə nümunə gücündədir. Bu nümunə həm də bizim həyat tərzimizə çevrilib. Çünki "Qonaqdan ayıbdır!" kəlməsini dünyanın heç bir dilinə Azərbaycan dilindəki kimi saf, olduğu kimi tərcümə etmək mümkün deyil. Bu da ondan irəli gəlir ki, qonaqpərvərlik bizim əsrlərdir, davam edən və bu gün də bizimlə addımlayan milli dəyərimizdir. Təkcə bu dəyər imkan verir ki, ölkəmizi, muxtar respublikamızı, insanlarımızı turistlərə yaxından tanıda bilək. Bu dəyərin dünyada yayılması, dərk olunması da, necə deyərlər, turistlərin əlindədir. Bu məsələləri ona görə xatırlatdım ki, turizm şirkətlərindən fərqli olaraq fərdi qaydada gələn turistlər, həm də gəzintiyə velosipedlə çıxmaq istəyən turistlər üçün ən həssas məsələ təhlükəsizliklə bağlıdır. Deməli, bu sahədə bizim imkanlarımız kifayət qədər genişdir.

Məsələnin digər tərəfi ondan ibarətdir ki, bu gün kimsə deyə bilər ki, bizdə xarici ölkələrdə olduğu kimi velosiped yolları yoxdur. Doğrudur, elə yollar yoxdur. Ancaq xaricdə də bu yolların salınması birdən-birə baş verməyib, tələbatdan yaranıb. Belə yolların salınması böyük maliyyə vəsaitləri tələb edir, həm də beynəlxalq kriteriyalara cavab verməlidir. Lakin bizim fərqimiz ondadır ki, Naxçıvan böyük meqapolislərlə müqayisdə avtomobil sıxlığı yaşamayan bir coğrafi ərazidir. Sadəcə, bu məsələlərdə sürücülərin maariflənməsinə ehtiyac var ki, hərəkət zamanı velosipedçilərə daha səmimi davransınlar. Yeri gəlmişkən, bu il Naxçıvan şəhərində yeni istifadəyə verilmiş Sahil Parkında ilk dəfə olaraq velosiped zolağının salınması təqdirolunası addımlardan biridir. Bununla yanaşı, hazırda yurdumuzun ən ucqar dağ kəndlərinə qədər uzanan yolların müasir tələblərə uyğun şəkildə qurulması daxili veloturların və ya fərdi şəkildə velosipedlə gəzintilərin təşkilinə imkan verir. O cümlədən muxtar respublikanın təbiət əraziləri burada dağ-çöl landşaftına uyğun veloekskursiyaların keçirilməsi üçün ideal məkandır. Bütün bu amillər Naxçıvanda veloturizmin inkişaf etdirilməsinə əlverişli şərait yaradır.



Bütün bu qeyd olunanları oxucularımızla bölüşməkdə məqsədimiz odur ki, velosiped istər idman növü, istərsə də nəqliyyat vasitəsi kimi faydalı və sərfəli məşğuliyyət sahəsidir. Veloturizmin inkişafı daxili turizmə də öz töhfəsini verə bilər. Çünki bu gün dünyada velosiped kirayəsi ilə məşğul olan özəl turizm şirkətləri yerli sakinləri də unutmur, onlara səyahətlərini maraqlı keçirmək üçün münasib qiymətlərə müxtəlif funksiyalı velosipedlər təklif edirlər. Bu isə, son nəticədə, velosipeddən istifadənin kütləviliyinə zəmin yaradır.

***P.S.*** *Avropanın turizm informasiya bürolarının məlumatlarına görə, məlum pandemiya dövründə insanların velosipeddən istifadəyə marağı daha da artıb. Sosial məsafə, təmiz hava, kütləvi sərnişindaşımalarda tətbiq olunan qadağalar velosipedi daha çox arzuolunan edib. Mövzu ilə bağlı olduğundan bunu da xatırlatmaq istərdim ki, ötən il Hollandiyanın Utrext şəhərində dünyanın ən böyük velosiped parkı açılıb. Park 12 min 500 velosiped yerlikdir. 17 milyon sakini olan Hollandiyada hazırda 23 milyon velosiped mövcuddur. Ötən il Hollandiyaya (velosipeddən ən çox istifadə edilən ölkə) gedən turistlərin 90 faizdən çoxu bu ölkədə velosiped kirayələyib. Sanki adama elə gəlir ki, turistlər bu ölkəyə elə velosiped sürmək üçün gedirlər...*

**✍ Səbuhi HƏSƏNOV**

## Teleradio jurnalistikasının inkişafı istiqamətində tədbirlər davam etdirilir

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası tərəfindən aparılan monitorinqlərin nəticəsi kimi qeyd etmək olar ki, muxtar respublika teleradiolarının əməkdaşları iyun ayında baş verən yeniliklərə operativ münasibət göstərməyi bacarıb, fəaliyyətlərini günün tələblərinə uyğun qurublar. Naxçıvan Dövlət Televiziyasında və Radiosunda, "Naxçıvanın səsi" radiosunda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə istifadəyə verilən sosial obyektlərdən operativ materiallar hazırlanıb.

Naxçıvan Dövlət Televiziyasında iyun ayında müxtəlif peşə sahələrini işıqlandıran, informasiyalarla zəngin, maraqlı telelayihələr reallaşdırılıb.

Ötən ay mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin və ya əməkdaşlarının iştirakı ilə Naxçıvan Dövlət Televiziyasının efirində 26 veriliş yayımlanıb ki, bu da müvafiq qurumların televiziya ilə qarşılıqlı əməkdaşlığının nümunəsi kimi diqqəti cəlb edir.

İyun ayında Naxçıvan Dövlət Televiziyasının və Mədəniyyət Nazirliyinin birgə layihəsi əsasında canlı efir vasitəsilə tamaşalar, konsert proqramları, muzey ekskursiyaları yayımlanıb.

İyun ayında "Kanal 35" Televiziyasında vizual görüntüsü aşağı olan materiallar efirə verilməyib, 31 televiziya və sənədli film efirdə ilk dəfə təqdim olunub.

Ötən ay şura tərəfindən "Naxçıvanın səsi" radiosuna yaradıcı köməklik göstərilib, radioverilişlərin daha geniş auditoriyaya çatdırılması üçün sosial şəbəkələrdə dəstək verilib. Proqram siyasətinin düzgün qurulması nəticəsində iyun ayında radionun dinlənmə sayında artım dinamikası qorunub saxlanılıb.

Hesabat ayı ərzində sosial şəbəkələrdə Naxçıvanla bağlı yayılan məlumatların təhlili də aparılıb, şura tərəfindən sosial şəbəkələrdə Naxçıvanla bağlı 700-dən çox foto və video, həmçinin xəbər paylaşılıb. Eyni zamanda şura tərəfindən mərkəzi mətbuat orqanlarında, ümumilikdə, 140-dan çox material yerləşdirilib. Həmçinin şuranın təşəbbüsü ilə "Teymurun 14 il işğal edə bilmədiyi qala – Əlincəqala" sərlövhəli məqalə Türkiyənin "Son saat" qəzetinin və qəzetin *sonsaat.com.tr* saytının oxucularına təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

## Xalçaçılıq kursunu bitirən müdavimlərə sertifikatlar təqdim olunub

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" xalçaçılıq ənənələrinin dərindən öyrənilməsi, araşdırılması və təbliği üçün geniş imkanlar açmışdır.*

Sərəncamın icrası çərçivəsində milli xalçaçılıq ənənələrinin qorunması və inkişaf etdirilməsi, əhalinin məşğulluğunun təmin olunması istiqamətində bir sıra təşkilati işlər görülmüş, "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında milli ornamentlər əsasında müasir bədii-estetik zövqü oxşayan müxtəlif ölçülərdə xalçalar toxunmuş və satışı həyata keçirilmişdir. Xalçaçılıq emalatxanasında təcrübəli xalçaçılarla yanaşı, gənclər də işə cəlb olunmuşdur. Dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı Xalq Yaradıcılığı Emalatxanasının xalçaçılıq bölməsində kurs təşkil olunmuş və 7 müdavimə xalçaçılıq sənətinin sirləri öyrədilmişdir. Kursu müvəffəqiyyətlə bitirən müdavimlərə müvafiq sertifikatlar təqdim olunmuşdur.

Bu cür tədbirlərin təşkili xalçaçılıq sənətinin inkişafı, gələcək nəsillərə ötürülməsi, gənclərdə bu sənətə marağın artırılması, Naxçıvan çeşnilərinin və ornamentlərinin qorunmasında mühüm əhəmiyyət kəsb etməklə yanaşı, əhalinin, xüsusilə də qadınların məşğulluğunun təmin olunmasına böyük töhfə verir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Uğura gedən yol

*Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu dövlət təhsil siyasətinin prioritetlərindən biri də istedadlı şagirdlərin aşkarlanması, inkişafı, bilik və bacarıqlarının praktik olaraq yönləndirilməsidir. Muxtar respublikamızda da bu istiqamətdə davamlı olaraq islahatlar aparılır, onların bilik və bacarıqlarının inkişaf etdirilməsi yönündə bir çox tədbirlər həyata keçirilir. Bu məqsədlə yaradılan məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyəti şagirdlərin istedadlarının üzə çıxarılmasına və milli-mənəvi dəyərlərimizə bağlı bir nəsil yetişməsinə öz töhfəsini verir.*

Belə istedadlı şagirdlərimizdən biri də ***İnci Nəsirova***dır.



2011-ci ildə Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin birinci sinfinə qəbul edilən İnci bu təhsil ocağında öz çalışqanlığı və fəallığı ilə seçilib. Belə ki, o, məktəbdaxili müxtəlif viktorinalarda iştirak edərək bir neçə dəfə qalib olub. Həkimlik sənətinə olan marağı onu kimya fənnini daha dərindən öyrənməyə sövq edib.

2013-2014-cü illərdə 15 nömrəli tam orta məktəb üzrə "İlin şagirdi" nominasiyasına layiq görülən İnci, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinin şagirdləri arasında istedad və bacarığı ilə fərqləndiyinə görə də təltif olunub.

İnci ən böyük uğurlarından birini Rusiyada keçirilən elmi-praktik konfransda qazanıb. Belə ki, 17 mart 2020-ci il tarixdə Rusiyanın Penza şəhərində "Elm və təhsil beynəlxalq elmi əməkdaşlıq mərkəzi"ndə keçirilən "Müasir gənclərin elmi diskussiyası: aktual suallar, nailiyyətlər və yeniliklər" XI Beynəlxalq elmi-praktik konfransda iştirak edən AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində İncinin "Biləv alüminium süxurundan alüminiumun mühüm birləşmələrinin alınması" layihəsi müzakirə edilərək I yerə layiq görülüb.

İncinin elmi rəhbəri AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun Mineral xammalın kimyası və texnologiyası laboratoriyasının müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent Qorxmaz Hüseynov deyir ki, İnci hər zaman öz qabiliyyəti və yüksək qavrama bacarığı ilə seçilib. Şagirdinin hər zaman onun etimadını doğrultduğunu fərəh hissi ilə qeyd edən elmi rəhbər vurğuladı ki, İncinin gələcəkdə daha böyük uğurlara imza atacağına inanır.

Bu gün Azərbaycan təhsilinin əsas məqsədlərindən biri istedadlı uşaqların qabiliyyət və yaradıcılıq imkanlarının aşkarlanması, inkişaf etdirilməsidir. Cəmiyyətimiz bir sıra məsələlərin həllini məhz bu cür uşaqlardan gözləyir. Elə dövlətimizin təhsilimizə, istedadlı uşaqlara göstərdiyi qayğının bariz nümunəsidir ki, bu günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında" Sərəncamı ilə İnci Nəsirovanın adı təhsil sahəsi üzrə Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüb. İnci Nəsirova ilə söhbətimiz zamanı onun hədsiz sevinc və minnətdarlıq hisslərinin şahidi olduq. O, qazandığı uğurlarda müəllimlərinin, xüsusilə təhsil aldığı məktəbin kimya müəllimi Kənan Hüseynlinin böyük zəhməti olduğunu onun "Sabahın tədqiqatçıları" layihəsində qalib olmasında böyük rol oynadığını vurğuladı. O, istedadının belə yüksək qiymətləndirilməsinə görə dövlətimizə minnətdarlığını bildirərək biliyini daha da təkmilləşdirəcəyinə, təhsildə daha böyük uğurlar qazanmaq üçün bundan sonra da səylə çalışacağına söz verdi. Biz də bu münasibətlə İncini təbrik edir, ona təhsilində böyük qələbələr arzulayırıq.

Digər istedadlı gənc isə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirməsi olan ***Vüsal Seyidov***dur. O, Babək rayonunun Vayxır kəndində anadan olub. Uşaq yaşlarından idmana böyük maraq göstərən Vüsal 7 yaşından etibarən karate məşqlərinə qatılır. İlk məşqçisi Nəriman Quliyev olub. Vüsal o günləri belə xatırlayır: "İlk məşq bugünkü kimi yadımdadır. Nəriman müəllim kiçikyaşlı uşaqlarla məşq keçirdi və hər məşqdə bizə idmanın bu növünün xüsusiyyətlərindən bəhs edirdi. Gündən-günə karateyə olan marağım artırdı və özümü yarışlarda sınamaq istəyirdim. İlk yarışım muxtar respublika daxilində oldu və uğur qazandım. Həmin uğur məndə daha böyük həvəs yaratdı. İdman, sanki sağlamlıqla yanaşı, həyat tərzimə çevrildi. Gündəlik məşqləri səbirsizliklə gözləyir, qarşıdakı yarışlara böyük həvəslə çalışırdım".




Dəfələrlə muxtar respublika birinciliklərinin qalibi olan Vüsal Seyidov 2016-cı ildən etibarən Naxçıvanı beynəlxalq turnirlərdə təmsil etməyə başlayıb. "İlk beynəlxalq turnirdə hansı nəticəni qazanacağım özüm üçün də maraqlı idi. Ona görə də İran İslam Respublikasının Astara şəhərində keçirilən turnirə ciddi hazırlaşmışdım. Məşqçim Nəriman müəllim də psixoloji olaraq mənə hər zaman böyük dəstək verirdi. İlk beynəlxalq turnirimdə qızıl medal qazanmaq, ardınca Naxçıvan şəhərində keçirilən "Heydər Əliyev kuboku" uğrunda yarışda və Şərur rayonunda keçirilən Beynəlxalq karate turnirində eyni uğurları təkrarlamaq məndə böyük motivasiya yaratdı. Bu uğurların təsadüf olmadığını göstərmək üçün yaradılan şəraitdən maksimum istifadə edərək məşqlər apardım və özümü daha da təkmilləşdirdim. Karate-do Federasiyası bizim yarışlarda iştirakımız üçün hər bir imkanı yaratdı. 2017-ci ildə Naxçıvan şəhərində keçirilən "Heydər Əliyev kuboku" uğrunda yarışda birinci oldum, Bakı İdman Sarayında keçirilən 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş klublararası, Türkiyənin Ərzurum şəhərində, eləcə də Qaradəniz və Xəzəryanı ölkələr arasında keçirilən beynəlxalq turnirlərdə bürünc medal qazandım".

Vüsal Seyidovun uğurları bununla kifayətlənmir. Belə ki, 2018-ci ildə Bakı şəhərində keçirilən "Arpaçay Open", Naxçıvan şəhərində keçirilən "Heydər Əliyev kuboku" və İran İslam Respublikasının Astara şəhərində keçirilən beynəlxalq karate turnirlərində qalib adını qazanan idmançımız 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunan beynəlxalq turnirdə, Beynəlxalq İdman Olimpiadasında, Xocalı faciəsinə həsr olunmuş Kumite, Kata növləri üzrə açıq turnirdə də fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

2019-cu il idmançımızın karyerası üçün daha əlamətdar olub. Bakı şəhərində keçirilən "10-cu Baku Open", Gürcüstanın Batumi şəhərində keçirilən "Batumi Open" və ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Naxçıvan Open" beynəlxalq turnirlərində qalib adını qazanan Vüsal Türkiyə Respublikasının Rizə şəhərində keçirilən Qaradəniz və Xəzəryanı ölkələrin çempionatında və İran İslam Respublikasının Astara şəhərində keçirilən karate üzrə IV Beynəlxalq turnirdə mükafatçılar sırasına düşməyi bacarıb. Ancaq Vüsal Seyidov üçün ən unudulmaz 2019-cu ilin noyabr ayıdır. Belə ki, bu tarixdə Makedoniyanın Skopye şəhərində keçirilən 11-ci Şotakan Karate Avropa Çempionatında WKF Kumite və Shobu İppon Kumite növləri üzrə tatami üzərinə çıxan idmançımız hər iki növdə böyük bacarıq göstərərək Avropa çempionu adını qazanıb: "Bu tarix mənim üçün unudulmazdır. Çünki uzun illərdir, etdiyim məşqin bəhrəsini gördüm. Bu, tək mənim yox, bütün Naxçıvan idmanının qələbəsi idi. Bizə yaradılan bu şərait, bu imkan olmasaydı, mən həmin Avropa çempionatında Azərbaycan bayrağını dalğalandıra, himnimizi səsləndirə bilməzdim. Həmin hissləri sözlə ifadə etmək mümkün deyil. Bu turnirdən öncə Karate-do Federasiyasının sədri ilə idmançıların görüşü olmuşdu və həmin görüşdə federasiya rəhbəri məndən böyük uğurlar gözlədiyini demişdi. Öz növbəmdə, söz vermişdim ki, göstərilən bütün etimada layiq olacağam".

Dünya Şotakan Karate Federasiyasının baş məşqçisi Hitoshi Kasuyaya imtahan verərək I DAN qara kəmər sahibi olan Vüsal Seyidovun adı ötən gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müvafiq Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılaraq o, Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüb. İdmançımız göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını ifadə edərək bundan sonrakı beynəlxalq turnirlərdə daha böyük uğurlar qazanacağına söz verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"nın təsis edilməsi muxtar respublikada ümummilli liderin əsasını qoyduğu dövlət gənclər və təhsil siyasətinin uğurlu davamı, gənclərə göstərilən diqqət və qayğının növbəti təzahürüdür. İnanırıq ki, müxtəlif sahələrdə fərqlənən istedadlı gənclərin qabiliyyətlərinin qiymətləndirilməsi, onların mükafatlandırılması muxtar respublika gənclərinin inkişafına bundan sonra da güclü təkan verəcək. Hərtərəfli dövlət qayğısı ilə əhatə olunan istedadlı gənclərimiz gələcəkdə doğma diyarımızı hər yerdə layiqincə təmsil edəcək, öz bilik və bacarıqlarını Vətənimizin tərəqqisi üçün əsirgəməyəcək, yeni-yeni uğurlara imza atacaqlar.

**✍ Ceyhun MƏMMƏDOV**
**✍ Telli MƏMMƏDOVA**

## Onlayn tədbirlər keçirilib



*Ötən ay Naxçıvan Dövlət Filarmoniyası və Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı tərəfindən təqdim edilən onlayn konsert və tamaşalar, muzeylər tərəfindən həyata keçirilən onlayn ekskursiyalar internet resurslarında paylaşılmışdır.*

İyunun 15-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Milli Qurtuluş Gününə həsr olunmuş Naxçıvan Dövlət Filarmoniyasının Kamera və Xalq Çalğı Alətləri orkestrlərinin tanınmış bəstəkar Məmməd Məmmədovun əsərlərindən ibarət konsert proqramlarının onlayn təqdimatı olmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə sağlamlıq imkanları məhdud uşaqlar üçün Milli Qurtuluş Günü münasibətilə Heydər Əliyev Muzeyinə onlayn ekskursiya edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərur yallıları haqqında" 2018-ci il 24 dekabr tarixli Sərəncamı ilə əlaqədar iyun ayında "Yallılar dünəndən bu günə" kitabı çapa hazırlanmış, qədim Naxçıvan diyarına məxsus bir neçə yallı lentə alınmışdır. Naxçıvan Dövlət Film Fondu tərəfindən çəkilişi aparılan həmin yallılar nazirliyin internet resurslarında paylaşılmışdır.

Ötən ay Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası tərəfindən Naxçıvan Müəllimlər İnstitutunun Kitabxana-informasiya ixtisası üzrə təhsil alan III kurs tələbələri üçün onlayn açıq dərs keçilmişdir. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən və təkcə muxtar respublika sakinlərinin deyil, ölkənin müxtəlif bölgələrində yaşayan vətəndaşların da qatıldığı "Bir neçə dəqiqədə mədəniyyət" adlı videoçarx, "Milli ornamentlərimiz rəsm əsərlərində" adlı rəsm və "Milli dəyərlərimiz düşüncəmizdə" adlı esse müsabiqələrinə iyun ayında yekun vurularaq qaliblər mükafatlandırılmışdır. Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən və il ərzində davam edəcək "Mədəniyyətin izi ilə" sosial layihəsinə iyun ayından start verilmişdir.

Hesabat ayında muxtar respublikada 716 sayda müxtəlif məlumat, audio və videomaterial hazırlanaraq sosial şəbəkələrdə yerləşdirilmişdir ki, bunlardan 118-i onlayn ekskursiya olmuşdur. Ümumilikdə, muxtar respublikada mövcud olan kitabxanalar tərəfindən tarixi və əlamətdar günlər, mədəniyyət və incəsənət xadimlərinin yubileyləri ilə əlaqədar 175 material hazırlanaraq sosial şəbəkə hesablarında paylaşılmış, "Nağıl günləri" layihəsi çərçivəsində kitabxana əməkdaşlarının uşaq və yeniyetmələr üçün hazırladığı 40 audionağıl sosial şəbəkələrdə nümayiş etdirilmişdir.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poeması və görkəmli şair, yazıçı və dramaturq Cəfər Cabbarlının "Aydın" pyesi əsasında, həmçinin Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında Hüseyn Əsgərovun eyniadlı əsəri əsasında hazırlanan "Qorxaq Əhməd" və Naxçıvan Dövlət Uşaq Teatrında Nuray Nəzərovanın eyniadlı "Mavi işıq" tamaşalarının məşqləri aparılmışdır. Onlayn fəaliyyət Mədəniyyət Nazirliyinin tabeliyindəki təhsil müəssisələrində də davam etdirilmiş, iyun ayında uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində, ümumilikdə, 1905 onlayn dərs keçilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Dezinfeksiya işləri davam etdirilir



Muxtar respublikada pandemiyaya qarşı qabaqlayıcı profilaktik tədbirlərə cəlb edilən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti tərəfindən, ümumilikdə, Şərur rayonu üzrə 240 min kvadratmetr yol və səkilər dezinfeksiya edilib.

Qeyd edək ki, rayonun Arbatan, Dərvişlər, Arpaçay, Çəmənli, Qarahəsənli, Ərəbyengicə, İbadulla, Qışlaqabbas, Tumaslı, Diyadin, Vərməziyar, Ələkli kəndlərinin mərkəzi və məhəllə yolları, kənd və xidmət mərkəzləri, mərasim evlərinin qarşısı xüsusi qurğu quraşdırılmış yanğınsöndürmə və dezinfeksiya avtomobilləri ilə dezinfeksiya olunub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Ordubad rayon Tivi kəndində yaşamış Quliyev Həmid Baxış oğlunun adına verilmiş JN-025B inventar nömrəli, 10700048 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

"Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus MH-0010456 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 510